Azərbaycan Milli
Kitabxanası

Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №09 (1265) 11 mart 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır

# KAMİLLİYİN QÜDRƏTİ XƏLƏFLİ MƏDHİNDƏ



*Əkbər ƏLİOĞLU,*
*filoloiya elmləri üzrə*
*fəlsəfə doktoru*

Taleyə bax, qismətə bax... Ömrün piran çağında, fiziki varlığımın çarmıxa çəkildiyi, əsəb və sinir süstlüyü içində üzüldüyüm bir zaman olayında bu üzücü xəstəliklə cəngi-cidala çıxaraq həzrəti Əli haqqında yazılmış dost əsərinə könül döyüntülərimi bəyan etmək istərdim. Hansı ki, dini qanunlara əməl etməyən; xüms, zəkat verməyən, oruc tutmayan, namaz qılmayan birisi, yəni mən bəndənizəm. Eyni zamanda uzun illər boyu hər səhər işə yollanarkən Allahı çağırıb ondan xeyir-dua istəmişəm; ona can sağlığı ilə yaşadığıma, ailəmə ruzi-bərəkət qismət etdiyinə görə şükranlıq etmişəm. Vəssalam. Dini mütaliəm isə adi müslimlərin qədərincə olmuşdur.

Xəstəliyimindən üç gün öncə - Əkbər, mənim "Ya Əli" rədifli qəsidəmə bir nəzər sal, gör bir şey edə bilmişəmmi, növbəti ədəbi söhbətlərimizin mövzusu üçün - dedi Əli Rza. İndi isə budur, yarım aydır özüm-özümlə çarpışmadayam. Ümidimi Allaha bağladım, diləyim üçün ondan güc istədim. Mümkün qədər bilgimə güvənsəm də, fürulluq etməklə, Əli haqqında fikir söyləmək səlahiyyətimlə bu bəşəri xislət, fəzilət və hikmət, ədalət tərəzisinin gözünü əyməkdən qorxuram, incə bir xətayla qaldığım mərtəbədən özümü aşağı endirəm. Baxmayaraq ki, həm də onun mərifət, ürfan çırağının işığından ruhunu nurlandıran milyonlardan biriyəm.

Şair bu qəsidədə ilham pərisinin ona rəva gördüyü Allahdan aşağı sözlə qəlbini cilalayaraq bu kəramət və dəyanət sahibi barədə poetik dəyərlər təyin edə bilmişdir; öz üslubuna xas bənzərsizlik xütbəsi yaratmışdır. Özü də gördüyü işin məsuliyyət ölçüsünün nə dərəcədə ilahi və ürfani ucalıqda olduğunu bilə-bilə.

**Bu qəsidə qəlbimin bulağından qan içdi,**
**Arx çəkdim sözlərimə - bir fürsətsən, ya Əli!**

**Əli şövqü, eşqinə yaza-yaza bildim ki,**
**Mənaların qibləsi, mahiyyətsən, ya Əli!**

Əli Rza Xələfli sözünün möcüzəsinə, sehrinə, heyranediciliynə fanatcasına yanaşanlardan yox, inananlardanam. Şairin qəsidəsinə verdiyim əhəmiyyətin fanatcasına gözünə ip salmaqla yox, müasir zəmanəmizdə dini xurafat zibilxanası missiyasını, dinin siyasətə qurban verilməsi, kibir, böhtan, yalan, fitnəkarlıqla dolu riyakar siyasət dəllallığının qorxunc kabusunu vurğulamaq istərdim. Bu tabunu ağıl, idrak sahiblərinin bəsirət gözünə ünvanlamaq baxımından əsəri yüksək qiymətləndirirəm. Əli Rza imam Əlini tərəfsiz şərh etsə də, o ucalıqda olan şəxsiyyətə tərəfdaşlıq etməmişdir. O, bunları bilərək İslam mədəniyyətinə Əli ölçüləri ilə yanaşmışdır. Əslində həzrəti Əlinin mənəviyyat aləmi misilsiz olub, hər cür ölçülərə sığmazdır. Fəlsəfi təfəkkürün ağıl, hikmət və məntiqi düşüncənin seçilmiş sərrafıdır: budur, onun evinə qonaq gəlmişdir. Qonaqları peyğəmbərimiz qəbul edir. Az sonra Əli də gəlib çıxır. Qonaqlar üçün süfrə açılır. Süfrənin ortasına həzrəti Fatimə içində bal olan bir kasa qoyur. Təsadüfən hamının diqqətini balın içinə düşmüş kiçik bir tük parçası çəkir. Bu, Məhəmməd əleyhüssəlamın nəzərindən yayınmır. Ani olaraq fikrə gedir. Və bədahətən süfrə ətrafında əyləşənlərə müraciət edərək deyir.: İstərdim ki, hər biriniz bu mənzərəyə məna verən bir təşbeh deyəsiniz, burada qonaq sözü hallanmalıdır.

*"Müdriklər, aqillər bir xalqın oğlu kimi doğulur, bütün dünyanın övladı kimi əbədi yaşayır".*

Ə.R.Xələfli

Hər kəs öz bənzətməsini söyləyir, rəvayətdə deyildiyi kimi peyğəmbərdən sonra həzrət Cəbrayıl, hətta Allah da öz münasibətini bildirirlər. Hər bir cavab qiyasa gəlməz dərəcədə idrak və mərifət bulağının klassik bir nümunəsi misalında olub qonaqları heyrətamiz səviyyədə razı salır.

Yadımda qalmış Əlinin təşbehi belə olur:

*-Qonaq bu kasadan işıqlıdır.*
*-Qonağa qulluq göstərmək bu baldan şirindir.*
*-Qonağı razı salmaq bu tükdən nazikdir.*

Əlavə edəcəyim digət təşbeh isə yadımdan çıxıb, - bilmirəm peyğəmbərə məxsusdur, yoxsa həzrəti Fatiməyə.

*-Quran bu kasadan işıqlıdır.*
*-Quran oxumaq bu baldan şirindir.*
*-Qurana əməl etmək bu tükdən nazikdir.*

Bu rəvayətin şairin qəsidəsinə heç bir aidiyyatı yoxdur. Sadəcə Əlinin hər cür tərifdən ucada olduğunu bir daha nişanlamaq üçün bu rəvayəti xatırlatmalı oldum. Və əminəm ki, oxucular yaddaşsızlığıma görə bu hikmət bulağından yanğılarını söndürə bilməyəcəklərinə görə təəssüf hissi keçirəcəklər.

On dörd əsrlik zaman kəsiyindən sonra belə özünün dəyər və məna ətrini günbəgün, ilbəil daim artırmaqda olan yeganeyi dəhr və bütün zamanlar üçün fenomen Əlinin şəxsiyyəti niyə bu qədər anılmaqda, ucaldılmaqdadır? Suala belə bir cavab vermək olar.

- Əli insana və insanlığa, onun yaratdığı cəmiyyətlərə, təbiətin, külli aləmin canlı və cansız varlıqlarına aid ümumi məlumatlar məcmusunu öyrənmiş və hər şeyi - əqidəsini, tərbiyəsini, əməllərini Quranın nizamnaməsi əsasında səliqə-səhmana salmışdır. Quranımız dünyanın səhmana salınması, düzlüklə, həqiqətlə, ədalətlə, bəsirət gözüylə nurlandırılması konstitusiyasıdır, əxlaq, mənəviyyat, tərəqqiyə istiqamət göstərən bir kodeksdir. Əli sevgisinin tükənməzliyi isə onun Qurana misilsiz inam və məhəbbətinin gücündədir. Dünya tarixi isə Qurana bərabər kitab hazırlaya bilməyib. Və bu, mümkünsüz qanunauyğunluqdur, çünki Quran ayələri peyğəmbərimizə Allah tərəfindən bəşəriyyətə - pozğunlaşmış, barbar mədəniyyət və adətlərə, haqqaniyyətin pozulduğu yaramaz, despot idarə üsullarına qarşı həzrəti Cəbrayıl tərəfindən vəhylə göndərilmiş mövcudiyyətin, bəşər əhli varlığının təminatçısı və bayraqdarıdır.

Göründüyü kimi, Əliyə olan sevgi öz mənbəyini Quranın təkzibolunmaz ayələrinin onun əməllərində təcəlla etməsindədir. Lakin nə edəsən ki, bic doğulmuş və biclikə idarə olunan müasir reformlarda insan nəfsinin tükənməzliyi həqqaniyyəti əyməyə yönləndirilib. Bu isə dünya tarixinin saxtakarlıqla yazılmasına, siyasi fahişəliyə rəvac vermişdir. Dinə, onun böyük yayıcılarına qarşı da beləcə ikili, üçlü, dördlü... münasibətlər tam şəkildə özünün qorxulu, heybətli simasını göstərməkdədir. Bu münasibətlərdən biri - sünni-şiə məzhəblərinin Əli, Ömər, Osman və Əbu Bəkir kimi İslam dirəklərinin tərəfkeşliklə qarşılaşdırılması yoluyla xüsusi qıcıqlar yaratmaqdan ibarətdir. Baxmayaraq ki, bu məzhəblərin oturaqlaşdığı məkanlarda dini ideologiyanın tərəqqipərvər və həqiqətpərəst nümayəndələri onların hər birinə öz sevgilərini bildirməklə, din qarşısındakı xidmətlərinə böyük dəyər vermiş və verməkdədirlər. Fəqət İranda fars şovinizmi cənublu qardaşlarımıza, eləcə də quzeylilərə görün nəyi təlqin, nəyi yasaq edirlər. Onlar molla rejimi pərdəsi altda ayrı-seçkilik toxumları cücərdirlər. Haqqın, ədalətin boğulduğu yerdə istərlər ki, fanatlar da artsın, böyük bir xalqın dilini, əlifbasını, adi insani hüquqlarını daha asanlıqla buxovlasınlar, manqurtlar cəmiyyətindən ibarət bir toplum yaratsınlar. İslami qanunlar məgər bundan ibarətdirmi? Mən əminəm ki, Əli Rza həqqaniyyətə qulluq edən qələmini ələ alıb "Ya Əli" deyibən həzrəti mədh edəndə bunları layiqincə bilirdi və elə bu həqqaniyyət naminə onu yeni nəsillərə ideal insanlığın bariz nümunəsi kimi təqdim etməyi, ali dinimizi şər qüvvələrin təsirindən qorumağın bir vasitəsi kimi cari və aktual bəşəri məqsəd düşünmüşdür. Budur o, qəsidəyə ön söz əvəzi kimi yazdığı "İlahi işığın bəşəri gücü" adlı bir səhifəlik essedə yazır: "Əli ibn-Əbu Talib zəka sahibi idi. Qeyri-ərəb xalqlarına hörmətlə yanaşmaq timsalı idi. O, insanların heysiyyətinə, xalqların adət-ənənəsinə və sərhədlərinə hörmətlə yanaşırdı. Mənim düşüncəmə görə, əgər Babək dövrü ilə Əli dövrü üz-üzə gəlsəydi Azərbaycan ərəb xilafətinin qəddarlıq üzü ilə qarşılaşmazdı. Bütün zamanlarda işğalçının bir üzü var, lənətlə damğalanan üzü. Əli İbn Abu Talib bütün həyatı ilə işğala qarşı durmuşdu. Siyasi, mənəvi, hərbi işğala qarşı". Təkcə elə bu baxımdan dünya xalqları Əli əməllərinə bu gün nə qədər ehtiyaclıdır. Fransanın Afrika iqliminə zorakı siyasəti, İsrail və ərəb xalqları münaqişələri, Rusiya-Ukrayna müharibəsi, nəhayət, ermənilərin hələ də davam edən seperatçı, ikiüzlü siyasəti və araqarışdıran qərb legionerləri... dünya bu gün böyük ağrı, təlaş və qorxu içindədir. Ona Əli hünərli, Əli dəyanətli, Əli qeyrətli, Əli hikmətli, ədalətli bir çağırışçı lazımdır; dünya xalqlarını həqqaniyyətə, sülhə, ədalətə, ən vacibi qardaşlıq və dostluq birliyinə ağıllı idrak sahiblərinin əsaslandığı İslami dəyərlərin təbliğat mexanizmini, mahiyyətindəki ülviyyət dolu bəşəri birgəyaşayışı nümunə göstərmək lazımdır. Bu nöqteyi-nəzərdən həzrəti Əlinin həyatı, əməlləri, əxlaqı, humanist və incə təbiəti ən bəsirətli nümunə kimi təkrar-təkrar bəşəriyyətə təqdim olunmalıdır. Bu mənada o, "hələ dünya bilmir ki, Əli İbn Əbu Talibin simasında onun qədər bəşəri bir zəka sahibi, insanlığa sevgi timsalı yetirməyib. O, istəməzdi ki, hətta din xatirinə olsa belə, insanlıq qılınc altından keçməli olsun" - yazanda belə nə qədər həyatı və dünyəvi bir ideyanı irəli sürdüyünün fərqində olub. Bax, bu yöndən "Ya Əli" rədifli qəsidəsinə yanaşanda, dəyər verməyə təşəbbüs göstərəndə şairin Allahdan aşağı sözə nə qədər inam və iman gətirdiyini hər bir beytdə müşahidə edə bilirik.

***(Davamı 8-ci səhifədə)***

# KAMİLLİYİN QÜDRƏTİ XƏLƏFLİ MƏDHİNDƏ

*(Əvvəli 1-ci səhifədə)*

Şəhidliyin yenilməzlik məktəbi Əli və övladlarına məxsusdur. "Əsrlərdir ki, Əli və övladlarının qəddarcasına qətli insanların yadından çıxmır. Zaman keçdikcə bu hadisə islamın mahiyyətinə daha dərindən nüfuz edir", - deyə yazmaqda Əli Rza nə qədər də haqlıdır. O, yaxşı dərk edir ki, bu şəhidlik dünyəvi, bəşəri, ulu bütün yer üzündə insanlığın təsdiqinin, onun haqqının qorunması yolunda olmuşdur. Eləcə də, bu gün düşünən və düşündürən bəşəriyyət, böyük zəka və ağıl sahibləri, ədalətli ideoloq və sosioloqlar, estetik və pedaqoqlar, kulturoloq və filosoflar, siyasətçi və hərbçilər yaxşı dərk edirlər ki, öz mənə siqlətinə, bəşəri dəyərinə, tarixi xidmətinə görə dünya tarixi hələ indiyədək belə müsibətli, eyni dərəcədə şərəfli şəhidlik hadisəsini yaşamayıb. 14 əsrdir bütün İslam dünyası bu qətliamı qeyd edir. Bu, yüz milyonlarla insanın həqqaniyyətlə bükülmüş bilekləri deməkdir. Haqqın, ədalətin boğulmasına qarşı hayqıran mənəvi azadlığın, insani hüquqların gur səsi deməkdir. Əli adının bəşəriliyi, hikməti, sirri, sehri, möcüzəsi, tarixi yaşam haqqı qazanması məhz bununla ölçülür. Elə buna görə də bu ad 14 əsrdir ki, köləliyə, zülmə, haqsızlığa, zorakılığa, ədalətsizliyə qarşı mübarizədə birləşən milyardlarla insanlara yoldaşlıq, qardaşlıq etmiş, qaranlıq ruhlara nur çiləmiş, böyük zəka sahibi kimi əziz tutulmuşdur. Bu ad indi də bu səlahiyyətdədir. Və gələcəkdə də - bütün zamanlar boyu belə olacaqdır. Onun söz, fikir çəməni Şərq fəlsəfi məktəbinin, müdriklik xəzinəsinin ən təravətli, ətirli bağçalarından biridir. Onun şairanə təfəkkürü bütün zamanların ədəbi nailiyyətlərinin qazandığı şöhrət qədər əzəmətlidir. Onun mərifət dünyası insanlığın əxlaq meyarlarına ən gözəl ziynətdir. Ondakı fəzilət ölçüsü heyranlarının heyrət nidasına görə bir fərdin köks qəfəsinə sığmaz.

*-Adəm və Həvvadan qul və kəniz törəməyib. Bütün insanlar azaddır.*

*-Zalımın zülmü məzlumun səbri qədərdir.*

*-Əgər zalımın zülmünə qarşı lay divar kimi dayanmasan, sabah o zülmdən şikayətlənməyə sənin haqqın yoxdur.*

*-Hər kəs öz oxşarına meyl edər.*

*-Hər kəs öz dilinin arxasında gizlənmişdir.*

Bunlar bu fəzilət, elm, hünər, ağıl, idrak sahibinin söz çəmənindən dərilmişdir. Peyğəmbər əleyhüssəlam məhz bunları nəzərə alaraq demişdir: "Ya Əli, səni ancaq möminlər sevər, səninla ancaq kafirlər ədavət edər". Bu geniş təfərrüatın arxasında Əli Rzaya məxsus bir aforizm dayanır: "Müdriklər, ağıllər bir xalqın oğlu kimi doğulur, bütün dünyanın övladı kimi əbədi yaşayır". Təbii ki, bütün dünyanın övladlığı missiyasını daşıyan insan haqqında əndazəni aşsan da, belə danışmaq, yazmaq xoşdur, ruhun sakitliyidir. "Bildiyini deməyən nakam gedər dünyadan" - deyə ötən həzrət imamı tərif etməmək mümkünmü?..

Qəsidənin böyük əhəmiyyəti, Əlinin örnəklik vacibliyinin aktuallığı bizi onun haqqında bir qədər təfərrüatlı danışmağa sövq etdi. Qeyd olunanlar, eləcə də, Əli şəxsiyyətinin təqdimatı və ölçülərinin poetik ifadəsi şairin bədii təfəkküründən necə süzülüb sətirlərə düzülmüşdür, hansı poetik incilərlə, mirvarilərlə naxışlanmışdır, ətir və təravətini hansı fəzilət və qəbahət (şair qəbahəti olar, amma bu qəbahət Əlidən tanrıyacan olan məsafə qədər uzaqdadır - Ə.Ə.) bulağından almışdır. Şair burada söz çəməninə necə bağbanlıq etmişdir, nəhayət, məzmun və forma hansı çəkili mənə mahiyyətinə malikdir, hansı bədii-estetik prinsiplər və fəlsəfi görüşlərdən qaynaqlanmışdır - kimi suallara cavabın məqamı yetişdi. **Baxaq görək bu 36 beytlik mədhiyyənin xislətində cövhərində nə var. Bütün bunların məzmun və ifadə imkanlarını çözələməzdən öncə mədhiyyənin yazılması zərurəti ilə bağlı bir saçmanı xatırlatmaq istərdim: Çox da uzaq olmayan illərdə qardaş Türkiyədə həzrəti Əlinin şərəfinə şeir müsabiqəsi keçirilmişdi. Səhv etmirəmsə, bu müsabiqənin qalibi bizim tanınmış qəzəl şairi Ənvər Nəzərli olmuşdu. Əsasən sünni məzhəbindən ibarət olan türklərin bu müsabiqəni keçirməsi onu göstərir ki, Türkiyənin müsəlman dünyası Əlinin adına həmişə məhəbbətlə bağır basmışdır. Bunu İslam tarixi haqqında yazan tarixçilər, Türkiyənin şöhrətli din alimləri də müasir dövrümüzdə fəxarətlə etiraf etməkdədirlər: həzrəti Əbu Bəkrə, Ömərə, Osmana olunan məhəbbət və ehtiram qədər Əli adına hörmət edilməkdədir. Keçmişdə ulu** şah babalarımızın etdiyi səhvlərin acı nəticələrini indi də, təəssüf ki, yaşamaq məcburiyyətindəyik. Böyük türk övliyası və ürfan şairi Yunus Əmrənin məşhur kəlamı nə qədər müasirdir, qoldan tutan dayaqdır:

**Şəriət, təriqət yoldur gedənə,**
**Həqiqət, mərifət ondan irəli.**



Bu yol göstərənlik, eləcə də, bütün dinlərə, təriqətlərə, məzhəblərə, etnik-milli mədəniyyətlərə, adətlərə hörmət məgər Əli fəzilətinin nüvəsini təşkil etmirmi? Əli Rza qəsidəni yazmazdan öncə də bunları mükəmməl mənimsəyib, ilkin orta əsrlərdən XIX əsrədək, hətta XX əsrdə də şairlərin yazdığı nətlər, minacatlar ona yaxşı bəllidir. Şəhriyarın, Qumrinin, Dəxilin... bir çoxlarının növhələri, qəzəlləri ona yaxşı tanışdı. Hələ klassiklərimizi, ulu Nizamini, Füzulini, Nəsimini, Xətaini demirəm. S.Ə.Şirvaninin, M.Ə.Sabirin dini görüşlərini, şeirlərini sovet ideologiyası yasaq etmişdi, az qala onların qoltuğuna bolşevik-kommunist papkası vermişdi. Əli Rza bunların acı nəticələrini yaxşı bildiyindən, hələ də xurafatçı möminlərin, fitnəkar siyasətçilərin, elitar qüvvələrin mənafelərinin qurbanlığına çevrilməsi qorxusunu yaşadığındandır ki, o, İslamın qapısını mədh etməkdə özünə poetik güc diləmişdir. Və Allah bu gücü ondan əsirgəmədi. Kim sənə deyir ki, Əli aşiqi olma, amma peyğəmbərdən sonrakı xəlifələrin - həzrəti Osmanın, həzəti Bəkirin, həzrəti Ömərin böyük və danılmaz xidmətlərini, elm, ədəb və fəsahət sahəsində hünərvər olduqlarını, böyük imamlarımızın insaniyyətlik amacını, tarixi xidmətlərini də danma, ruhlarını hörmət və ehtiramla yad et. Eləcə də, dinləri, peyğəmbərləri tərəfkeşliklə qarşılaşdırmaq - bu, islamiyyətə bir ləkə olardı. Allah xatirinə belə idbar düşüncə daşıyıcılarını lənətləmək, ifşa etmək hər bir təmiz, mömin müsəlmanın haqqı olmalıdır. Bu həqiqəti bilib dilə gətirməmək Əlinin dediyi kimi nakam gedər dünyadan. Bu mənada Əli Rza öz kamına çatmış fitrət sahibidir. Belə bir fitrət sahibinin ruhundan yalnız Əli adına layiq kəlamlar doğula bilər. Əgər qəbul etsək ki, şair bu həcmli qəsidədə yalnız bir beytlik ali, ruhani olduqca bədii fikir kəşfi edə bilibsə,nə xoş onun halına. Elə bu bir kəşf də minlərlə qaranlıq düşüncələri aydınlatdıra bilsə, böyük məqsədin qələbəsi olardı, hədəfin təntənəsi olardı.

Qeyd etdiyimiz saçma çox uzandı, deyəsən, füzulluq etdik. Qoy bizi Allah bağışlasın, peyğəmbərimiz və peyğəmbərlər xatirinə. Amin!

Müasir poeziyamızda qəsidəyə az müraciət olunur. Bununla belə Əli Rza qəsidələrinə xas polifonizm, əzəmət və gözəllik, bədii-estetik və fəlsəfi vüsət, məzmun yeniliyi, ideya böyüklüyü bu əsərində də bizi razı salır. Bəlkə də bu sahədə birincilik bayrağı onun əlindədir. Nümunə olaraq onun üç qəsidəsinin adını çəkmək istərdim: "Söhrab Tahirə məktub", "Türkiyənin zəlzələ ağrıları" və "Ya Əli". Onların həcmi sıralamaya uyğun olsa da, qeyd olunan kriteriyalar baxımından rəqabətdə bərabədirlər. "Söhrab Tahirə məktub"a nəzirələr yazıldı, onlarla məqalələrdə təhlilə cəlb olundu, - ürək dolusu. "Türkiyənin zəlzələ ağrıları" Türkiyədə ədəbi cameə salonunu titərtdi, müəllif adına gurultulu və sürəkli alqışlar ünvanlandı. Hər iki qəsidə haqqında tədqiqat kitablarında dərin analitik təhlillər aparıldı. Bu baxımdan dördlük bölgüsü şair Hüseyn Kürdoğlunun boyuna necə biçilibsə, qəsidə janrı da onun boyuna eləcə biçilmişdir söyləməkdə israrlıyıq. Təvazökarlıqdan uzaq olsa da, xatırlatmaq istərdim ki, mənim "Etiraf və yürüş marşı"m "Söhrab Tahirə məktub"-dan təsirlənərək yazılmışdır. 2007-ci ildə yazılmış bu şeirin kiçik bir parçasında deyirəm:

**Şərbət bilib içdim ondan, təşnə axdı ürəyimə,**
**Aləm bilir, dadlı-dadlı tamı qaldı damağımda.**

Bu şeir özümün xoşuma gəlsə də, onu Əli Rza budağına sığınmış yarpaq misalında dəyərləndirmişəm. Yarpağı belə olan dost əsərinin görün kökü, budaqları necə olar... Mən gözləyir və umurdum ki, Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycana gələndə Əli Rza önə veriləcək və "zəlzələ ağrıları"nın Ərdoğana müraciət bölməsi qarşılama təntənəsi kimi müəllifin öz dilindən səsləndiriləcək. Heyhat, sən saydığını say, gör fələk nə sayır.

İdeya böyüklüyü və dəyərinə görə şairin ən kiçik qəsidəsi olan "Ya Əli" "min illərin təzəsi-təravəti", "min dürlü haldan keçən təbiəti" olan imamı bizə necə təqdim edir, onun vəsfini, tərifini vermək üçün hansı dürlü-dürlü, inci-inci söz çeşməsi bulağından su içmişdir? Elə ilk beytdən başlayaq: "min illərin təzəsi", "min dürlü haldan keçən təbiət" yarlığı əslində dialektik qanunauyğunluğa bir işarədir. Niyə? - ona görə ki, hər bir varlığın zərrəsində olan Tanrı insanı bütün yaranmışların əşrəfi kimi seçərək xəlq etmişdir. Bununla belə bu insan təbiətin bir varlıq formasıdır. Bu varlıq bütün işıqlı və qaranlıq tərəfləri ilə möcüzəvidir: işıqlı tərəfi ilə özünü, əməllərini heyrət və gözəllik nidasında saxlayan əbədi bir təravətdir. Heyrət və gözəllik isə təbiətdə olan insanda təcəlli edən elə min dürlü təbiət deyilmi? İnsan adının, əməllərinin bəşəriliyi bu beytdə Əlinin üzərinə köçülürmüş, onun bədii təsdiqi kimi mənalandırılmışdır. Əli təbiətinin böyüklüyü həqqaniyyəti, əbədi müasirliyi şairin poetik dili ilə necə də üst-üstə düşür, bütöv bir tam kimi Əli zənginliyinin göstəricisinə çevrilir. Və növbəti beyt bu zənginliyin bir guşəsini ehtiva edir - elm, idrak xəzinəçiliyini:

**Sənsən idrak sahibi - elmin yolu, qapısı,**
**Sən "Nəhcül-bəlağə"sən, söz, hikmətsən, ya Əli!**

Burada "Nəhcül-bəlağə" nitqin, danışığın, söhbətin bəlağətli ifadəsi anlamındadır. Bu ifadə Əlidən təxminən bir əsr sonra yaşamış ərəb etnoslu Seyid Raciyə məxsusdur. O, həzrəti Əliyə bu ifadəylə dəyər vermiş və imamın xütbələrini, hikmətli kəlamlarını nəhcül bəlağə adıyla toplayıb cəm etmişdir. Beytdəki həmin bu ifadə də ona işarə olmaqla böyük müdriklik mücəssəməsi olan Əlinin söz ustadlığının göstəricisi misalındadır. Təbii ki, elm, hikmət, idrak göstəriciliyi həm də hansı sözdən və necə istifadə edib nitqi rəvanlaşdırmaqla da müəyyənləşdirilir. "Nəhcül-bəlağə" bunların cəmi mənasındadır. Yuxarıda qeyd etmişdik ki, möminləri həq yoldan, doğru məlumatlardan çəkindirən dini xurafatdır. Özünü adi insanlardan seçməyən Məhəmməd əleyhüssəlam dini risalələrə uydurma bəlağətlər qoşmağın, məddahlıqda fantastik mübaliğələrə inandırıcı cəhdlər edilməsinin əleyhinə olmuş, sadə həyatıyla bütün bəşəriyyətin sevimlisinə çevrilmişdir. Eləcə də Əlinin Düldülü və qılıncı haqqında uydurulmuş əfsanəvi əhvalatlar onun sağlığında edilsəydi, o bunu necə təəssüf və ağrı hissi ilə qarşılayardı. Şair növbəti beytdə dini xurafat məhsulu olan bu düşüncəyə qarşı münasibətini feilin inkar formasında belə bir deyimlə ifadə etmişdir:

**Nə Allah, nə peyğəmbər, nə hakimsən, nə məhkum,**
**Fəqət Ərşi-Əlaya bir zinətsən, ya Əli!**

Bütün qəsidə boyu Əlini fetişləşdirmək niyyəti qətiyyən görünmür. Burada imam özünü tanıdığı kimi təqdim olunub. Şair poetik qəhrəmanı olaraq onu "Ərşi-Əlaya zinət" kimi mədh edərkən yalnız bədii şişirtmə kimi bir vasitədən istifadə etmişdir. Burada külli gözəliyə zinət olmaq insanın ən ali məqamı kimi düşünülüb. Məgər belə deyilmi? Bütün dünyanın tərəqqipərvər insanları, bütün İslam dünyası onu uca tutmaqla zinətləndirmirmi? Əslində şairin təbii və sadə görünən bu izafəti elə sadəliyində böyükdür və onun ərşi-əlaya zinət olmasının klassik ifadə forması və təsdiqidir. Bu gün vahabiləri qıcıqlandıran bilirsiniz nədir? - şair fikrinin feilin təsdiq formasında fanatiklər tərəfindən təbliğat maşınına çevrilməsidir. İslamiyyətin belə bir təbliğata ehtiyacı yoxdur. Əslində bu tip təbliğatlar bu böyük zəka sahiblərinin dünyəvi nuruna kölgə salmağa xidmət edir.

*(Davamı 9-cu səhifədə)*

# KAMİLLİYİN QÜDRƏTİ XƏLƏFLİ MƏDHİNDƏ

*(Əvvəli 8-ci səhifədə)*

Əli Rza Xələfli də xələfləri kimi öz əməllərinə heyranlığının ifadəsi olan əbədi dastançılıq, nağıl və hekayətlərə bənzətmələr yolunu seçərək həzrəti Əlinin dillər əzbərliyini, nağıl, dastan və hekayət düsturlu həyatını, ömrünü tərənnüm edir. Və çox haqlı olaraq onun cəngavərliyini qeyd etmiş, "Zülfüqar tək qılınc yoxdur" - yazmışdır. Bu "tək" qoşması təbii ki, onun misilsiz bir ustalıqla hazırlanmasına və kimin əlində olmasına işarədir. Görün bu cür mübaliğəli təsvir hara, "Zülfüqar bir neçə metr uzunluqda başlar üzər" düşüncəsi hara?

Digər beytdə isə söylənilir:

**Hələ dünya bilmir ki, axıracan əzəlsən,**
**Adəmdən Xatəməcən əlamətsən, ya Əli!**

Dünya insan cəmiyyəti, müxtəlif dinli, inanclı, təriqətli, dinsiz toplumdan ibarətdir. Bu inanclı insanlar özlərinin belə dinlərinin mənəvi təkamül yoluna işıq salmaqda birincidir, yoxsa neçənci olduğunu bilmirlər. Bu mənada onlar, təbii ki, islami dəyərlərin əzəli olmasını təyin etməyə bilərlər. Bu dəyərlərin kanı Əlidir. "İncil", "Tövrat", "Zəbur" və "Quran"a inam göstərənlər ki bunu yaxşı bilir. Əli Rza bu məntiqə söykənərək əzəmətli həzrətimizi Adəmdən Xatəməcən əlamət sayır. Niyə? Ona görə ki, inanır ki, İslamiyyət Adəmdən Xatəməcən birgəyaşayışın ən ali konstitusion qanunlar məcəlləsidir. Buna iman və inam gətirmək Allahın həqqaniyyətliliyini qəbul etmək, bayraq tək ucada tutmaq deməkdir. Əlinin böyüklüyünü bax belə vəsf edərlər. Elə bunun nəticəsidir ki,

**Hər insan öz dilində oxunsa bir kitabdır,**
**Sən kitablar kitabı, kəramətsən, ya Əli!**

-deyə yazmaqda şair nə qədər də haqlıdır. Düzünə, dərin, düşündürücü, əqli nurlandırıcı və cilvəli bir kəlamdır. Bəli o, əməlləri qucaq-qucaq kitablara sığan Əbu Talib oğlunu kəramət sahibi kimi anmaqda, təqdim etməkdə haqlıdır. Ümumbəşəri təfəkkür ölçüsüylə yalnız "Quran"a yiyələnib onun qapısı olmaq səlahiyyətinə çatanlar kitablar-kitabı, kəramət sahibi ola bilər. Belə insanlara seçilmişlər deyirlər: peyğəmbərlər, imamlar, xalqının, dövlətinin, bəşəriyyətin xoşbəxtliyi naminə yalnız böyük əməllərə nin ana südü, ata nəsihəti, vətən çörəyi tək haqqı deyilmi? Bunların təfərrüatlı fərqinə varmaq sapa inci düzmək deyilmi? Və nəhayət, elm, hikmət qazanmaq yolunda ruhani bir məclisin şirin-şəkər mövzusu deyilmi?

İnsan ağır, çətin vəziyyətlərə düşəndə, əlacsızlıq girdabında üzüləndə, xüsusən də ağır xəstəliyə düçar olanda Allaha pənah aparır, ondan özünə kömək diləyir (Biz beləyik də, çətinə düşəndə ona üz tuturuq, amma dinimizin ən vacib əməllərinə, boynumuza həq qoyulmuş vacib ayinlərə etina göstəririk), ən son əlac yeri kimi ondan nicat diləyirik, müşkül işlərimizə avandlıq arzulayırıq. Bundan böyük, bundan ağır dilək yoxdur. Əlinin insan və insanlığa ağıl və idrak nuru ilə gərəkliyini şair Allaha məxsusluq mərtəbəsində təqdim edir. Bu ritorika deyil, bəlağətli, eləcə də fanatcasına edilən qiyas, iqtibas deyil. Bir halda ki, Əli Allahın sevdiyi bəndələrindəndir, islamiyyətin qapısı mislindədir, tanrı zərrələri onun da ruhaniyyətində baş yerdədir. Niyə də şair nicata, əlacada Allah rizasıyla onu qiyasa gətirməsin, hansı ki, o, növbəti beytdə Allahın adını çəkmir. Belədə bundan böyük mübaliğə, bənzətmə, metaforik təbiətdə olub pərdə arxasında gizlədildiyi məlum olan poetik deyim ola bilərmi? Pənah gətirmə mənbəliyinin ülviyyətini başqa cür necə ifadə etmək olardı? Hər halda Əli Rzanın deyim tərzi bizi tam razı salır, əsl şair sözünün tərcümanlığına dəyərli misaldır:

**Əl ətəkdən üzülsə, göz dikər sənə hər kəs,**
**Ümidlər qırılanda güc, qüvvətsən, ya Əli?!**

Elə bu nümunənin özü də bir daha sübut edir ki, Əli Rza düşüncəsində həzrəti imamı fetişləşdirmək niyyəti olmamışdır. Fikir verin. İkinci misradakı fikir sual şəklində qoyulub, yəni onun Allahla qiyaslığının gerçəklik olduğu oxucuların öhdəsinə yönləndirilib. Və elə buradaca oxuculara Nəsiminin "Məndə sığar iki cahan"ını yada salmağı tövsiyə edirəm. Burada o, "mənəm Allah, mənəm yer üzündəki həyat və səadətin yaradıcısı" deyən Elxan Biləgənli fanatizmindən uzaqdır. İmamın sadə insanlarla münasibətindəki, sosial həyatındakı adi məişəti, bütün insanlarla bərabər çəkidə əməyə, zəhmətə bağlılığı barədə nə qədər məlumatlar var. Tədqiqatçılar onun simasının bu cəhətləri barədəki informativ fikirləri dönə-dönə lər üçün toxum səpmiş olursan. Bilməliyik ki, seçilmişlər bütün insanlara, yəni bəşəriyyətə əmanətdirlər. Bu baxımdan şairin böyük zəka sahibini müsəlman ümmətinə əmanət kimi təqdim etməsi gerçək həqiqətin ifadəsidir. Və bir həqiqət kimi gözəl həqiqətdir ki, fikir Əlinin adına ünvanlanmışdır.

Yazının əvvəlində şairin ilhamına güvənərək özünün yaradıcılıq energiyasını səfərbərliyə aldığına işarə etdiyini bildirmişdik. Bu, təbii, yaradıcı potensialın özünə toparlanaraq sürəkli və qlobal əhəmiyyətli işə rəvac verməsinə bir etirafdır. Vaxtı ilə xalq şairi Rəsul Rza da "Lenin" peomasını yazarkən özünün yaradıcılıq əhval-ruhiyyəsi ilə toxunduğu mövzu arasında rabitə yaradaraq gördüyü işin çəkisinə işarə etmişdi. Əli 14 əsrdir ki, bəşər tarixi ilə əbədi səfərdədir. Əli Rza isə bu səfərə alqış və şərəf xələti geyindirməyə təşəbbüs göstərmişdir. Və bu zaman qeyd etdiyimiz kimi o, "qəsidənin qəlbinin bulağından qan içdiyini" etiraf edir. Və məhz bu zaman o, "yaza-yaza bildim ki, mənaların qibləsi, mahiyyətsən, ya Əli!", - deyə anladığını oxuculardan gizlətmir. İmamın "ürəyinə hakimliyini" etiraf edir. Lakin bu hakim onun ruhuna genişlik, azadəlik nəsimisi əsdirməkdədir. Elə imama "məcnunluq eşqi, məhəbbəti" məhz bu nəsimin mayasından yoğrulduğuna görədir ki, poetik "mən" onun ocağında, hərarətində qızınmalı olur; enerji balansına növbəti vəhy, ilham bulağı əlavə olunur:

**Varlığımdan əsirdi tənhalığın yelləri,**
**Qızındım ocağında, hərarətsən, ya Əli!**

Biz "Ya Əli" qəsidəsi haqqında yalnız bir lektoriyalıq fikir söyləyə bildik. Əli Rzanın poetik düşüncəsinin vüsətli işığı bu həcmli təhlilə yetərlidirmi, ya bu təhlil həcmi və məna tutumu baxımından kasıb, fəqət səxavətli görünsə belə ondan aşağı mərtəbədədir? Gəlin, bunun fərqinə varmayaq, olanını verən utanmaz. Hər halda, ümid etmək olar ki, ön hissədə sadaladığımız kriteriyaların hər biri formatında fikir nümayişi mətndə görünməsə də, ümumi halda nəticə olaraq onların proyeksiyasını mətnaltı məna çalarlarında axtarmağa və nəsə tapmağa kömək edə bilər. Bəsirət gözüylə baxılsa, qəsidə barədə müəllifi və oxucuları razı salacaq nüanslar əslində mətndə oturaqlaşmışdır.

Fitrət sahibliyinə, istedadının gücünə ürək geniş- imza atanlar kəramət sahibi kimi qiymətləndirilir. Şair həzrəti Əlini əbədilik qazanmış seçilmişlərdən biri kimi təqdim etməklə Əli səxavətinə, Əli dəyanətinə, Əli fəzilətinə, Əli idrakının nəhrinə, Əli həqiqətinə, Əli təmizliyinə, Əli sevgisinə özünün tərəfdaşlıq imzasını bəyan etmişdir.

Vaxtı ilə filologiya elmləri doktoru Rüstəm Əliyev Nizami lektoriyası yaratmışdı. O burada bəyan etmişdi ki, N.Gəncəvinin hər beyti lektoriyanın müzakirəsi səviyyəsindədir. Bu cəhətdən Əli Rzanın "Ya Əli"sinin də hər beyti bu səlahiyyətə ucala bilib. Bunun öncül səbəbkarı həzrətimizin özüdür. Təbii ki, nə Əli Rza Nizamidir, nə də Əkbər Əlioğlu Rüstəm Əliyevdir. Amma gəlin baxaq: "Bircə sözüylə min hiylənin torunu dağıtmağa qadir", "qırxlar məclisinin irfan işığı", "ruhumuzda, varlığımızda var olan", "böyüyün üzünə ağ olan nadana ədəb timsalı", "Məzari-Şəriflik" və "Nəcəfül Əşrəf" misallı həqiqət, "vəsfini yazan və oxuyanlara şan-şöhrət", "dağ məğrurlu", "zirvə qürurlu", "yenilməzlik heykəli", "düşüncəsi kasada zehniyyət" olan kimi sıralanan bədii təsvirlər halal-hünmət Əlinin şəxsiyyətinə ünvanlanmışdır. Özü də necə? Bu necənin cavabı Xələfli şeirinin hər beyt şərhi deməkdir, təhlil olunma meyarıdır. Qoy bu təhlilləri düşüncəsi daha dərin, daha işıqlı möminlər, ədəbiyyat alimləri və huşyar, məlumatlı, hörmətli oxucular aparsın - həq sözə şəhadətlik etsinlər ki, dünyadan nakam getməsinlər.

**Hər kəsə öz dilində haqqı nişan verənsən,**
**Millətlərin birliyi - cəmiyyətsən, ya Əli!**

**Cümləyə hami də sən, Cəmşidin camı da sən,**
**Camalların cəmisən, sir surətsən, ya Əli!**

Bu beytlərdə nələr yoxdur; hər kəsə öz dilində haqqı nişan vermək, millətlərin birliyi, təmsilçisi olmaq müqəddəs dinimizin məramı deyilmi, Cəmşidin camı ayinəliyini cümləyə hamı kimi əks etdirmək, - məgər bu ayna "Quran" ayələrinin mənəvi təmizlik, düzlük, dirilik, saflıq çeşməsini əks etdirmirmi... Bu mənada hüsni təravətdə camalların cəmi olmaq Əli- analiz edərək həmin məlumatarın dürüstlüyünə imza atmışlar. Bunları eşidib öyrənmiş, yaxud oxumuş şair görün necə sadəliklə, özünəməxsus incəlik və təravətli ifadə tərzini kəşf etmişdir.

**Səpində hünərimiz, biçində sərvətimiz,**
**Süfrəmizdə duz-çörək, bərəkətsən, ya Əli!**

Deməli, harada ki, birgə əməyin tərənnümü var, bölünən məhsulun ədalət tərəzisi var, duz-çörək, xeyir-bərəkət var - orada Əli fəzilətinin möhürü var. Bütün bunların ifadəsi üçün şair böyük bir ustalıq və zərifliklə səpin və biçindən ibarəti əməyin böyük qüdrətini, mənəvi rahatlığa ən nümunəvi dayaq olduğunu bizə nişan verməşdir.

Ədəb, mərifət, fəzilət, xoş əxlaq kimi keyfiyyətlər insanın mənəvi aləminin güzgüsüdür. Bu öz yerində. Məzmunlu, mənalı və gərəkli fikir söyləyən haqqında deyirlər, - görmürsən, kişi qızıl xırdalayır. Bu qızıl xırdalamaq frazeologiyası bəlkə də ən nümunəvi mənəviyyat sahibinin ünvanını təyin edir. Əli də Əli Rza qələmində bax belə təqdim və tərənnüm olunub. Ədəb, mərifət, əxlaq, ağıl, idrak prosesləri ilə bağlı hər şey məcazi şəkildə qızılla qiyasa gətirilib. "Filankəs qızıl kimi insandır" - deyib ulular. Bu qızıl insanın zərgərliyi isə bilgisini əyanilşədirməkdən, nümunə göstərməkdən, başqa cür desək, öz mən dünyasını başqalarına öyüd, nəsihət, vəsiyyət kimi elan etməkdən ibarətdir. Və həmçinin bilməlisən ki, vaxtı, zamanı ötürmək olmaz, "can bədənə olum ölüm arası" verilib. Əli bunların qızılla yonulmuş, gözəlliklə sığallanmış monumental abidəsidir - Əli Rza dərkində, ədəbində.

**Can bədənə verildi olum-ölüm arası,**
**Sən ümmətin ruhuna əmanətsən, ya Əli!**

**Bildiyini deməyən nakam gedər dünyadan,**
**Qızıl sözün zərgəri, nəsihətsən, ya Əli!**

**Ürfanı ədəbiyyatda deyilir ki, Allah bizləri** - fiziki varlığımızı əql və idrakımıza etibar etmişdir. Hər birimiz validеynlərimizə əmanət edilmişik, övladlarımız da bizlərə əmanətdir. Əmanətəsə xəyanət olmaz. Xəyanət etdinsə, hər cür şər, xəta və günahlar, əməlliyi ilə inandığım XƏləfli ilhamına, onun Əli sevgisinə salamımı qəsidənin son beyti ilə göndərərək ona yeni-yeni yaradıcılıq onalıqları arzulayıram.

**Hər müdrikdən qalan söz zaman-zaman dil açar,**
**Dünyanın sonunacan vəsiyyətsən, ya Əli!**

Xələfli "Aşiqliyin işığında" adlandırdığı kitabını "Ya Əli" rədifli qəsidəsinə verilmiş ad kimi düşünmüşdür. Bu ad qəsidənin ruhunu, məzmun arealını tam dolğunluğu ilə əks etdirib. Kitab nəşriyyata təqdim olunmamış nəyin şahidi olduq; Şairin görüşünə getmişdim. Gördüm ki, müxəmməs formasında yazılmış şeiri kompüterçi xanıma diktə edir. Və şeirin hər bəndinin son iki misrası mənə o saat tanış və məhrəm göründü. Səhv düşündüyümü anladım. Bəli, şeir müxəmməs yox, müxəmməs formasında yazılmış təxmis idi. Necə yəni təxmis; özü özünə təxmis yazmaq?! Bəli, bu belə idi. Şair təxmisə epiqraf da verib: "Əli mədhində Xələfli qəsidəsinə Əli Rzanın təxmisi" və təxmisi "Aşiqliyin işığında" adlandırıb. Ədəbiyyat tarixində təxmisin birmüəllifli ilk nümunəsi. Bunu ədəbi hadisə adlandırmasaq da, poeziyada təzə ifadə forması kimi qəbul etməmək mümkün deyil. Şair bu minvalla udub, ya uduzub? Rahatlıqla deyə bilərik ki, udub. Ona görə yox ki, təxmis böyük ustalıqla yazılmış şeirə - "Ya Əli"rədifli qəsidə əsasında yazılıb. Ona görə ki, təxmis olunan misralar "Ya Əli" beytlərinə yüksək sənətkarlıqla, güclü və dərin məntiqi bir bağlılıqla əlavə olunub. Əslində, söz ardı səciyyəsində olan yazımıza bu əlavə məhz müəllifin böyük uğura imza atmasını bir daha təsdiqləmək niyyətilə edildi. Şair əlavələrini isə ayrıca şərh etməkdən vaz keçirik.

Qoy təxmisin bədii-sənətkarlıq dəyərini hörmətli oxucular və ədəbiyyat adamları versin. Sadəcə ümumi halda deyə bilərik ki, şeir elə bir klassik ucalıqda alınıb ki, bilmirsən hansı bəndi nümunə olaraq təqdim və təqdir edəsən.

*(Davamı 16-cı səhifədə)*

# KAMİLLİYİN QÜDRƏTİ XƏLƏFLİ MƏDHİNDƏ

*(Əvvəli 9-cu səhifədə)*

Şair burada da özünün daxili emosional yaşantılarını Əli mədhinə qataraq şeirin bədii siqlətinin təsir gücünü "Ya Əli"də olan çəkidə saxlaya bilmişdir. İstər "Ya Əli" olsun, istərsə də, "Əli mədhində Xələfli qəsidəsinə Əli Rza təxmisi" olsun, fərq etməz, hər hansı biri növbəti Əli mədhinə həsr olunacaq şeir müsabiqəsinin qalibliyini Əli Rza Xələflinin adına yazdırmaq mislindədirlər. Deyəsən, nümunələrsiz keçinə bilməyəcəyik:

**Açılsa bar-barxanam, sənsən xəzinəm, yüküm,**
**"Of" demərəm qatlansa dizlərim büküm-büküm,**
**Parçalansa yer üzü tərpənməz bircə tüküm.**
**Nə Allah, nə peyğəmbər, nə hakimsən, nə məhkum,**
**Fəqət Ərşi - Əlaya bir zinətsən, ya Əli!**

Şairin imamdan sovqat olaraq diləyinə baxın: *"Çəkilsəm nin divana qanıma qasid göndər, Kimliyimi görməyə sınanmış aşiq göstər, Küskün ilham pərimlə sülhə barışıq göndər"* çağırışı görün necə heyrətamiz bir ucalıqla Əli nurunun ucalığı ilə bitkin, təmiz ölçü vahidliyi qazanıb:

**Düşüncəmin taxtında sən özünsən tacalıq,**
**İşığın bəs eləyər olsa bircə bacalıq,**
**Adına tapınmışam, mənə neylər qocalıq?**
**Əfsanəsən dillərdə, adın zirvə, ucalıq,**
**Əbədi nağıl, dastan, hekayətsən, ya Əli!**

On dörd əsrdir ki, Əli və övladlarının şəhidliyi haqq-ədalət uğrundakı mücahidliyin ali təntənəsi kimi yad edilir. Tarixi dərslər də şahidlik edir ki, bu qətliyamı törədənlər hələ də lənətlə damğalanırlar. Lənətli insanların, Əliyə xilaf çıxanların aqibəti Xələfli qələmində fəryadlaşır. *"Dərdi tüğyan elədi, acısı bünyad aldı, Qəlbinin ölkəsində sevdasını yad aldı"*. İnsanın şər əməlləri nəfsin doyumsuzluğundan süd əmir. Və nə edəsən ki, müasir zəmanəmizdə də belədir. Bu əməllərin qarşısına sipər olaraq şair imamımıza çağırış bildirir, çünki o, yaxşı bilir ki, Əli məzluma xəta gəlsə, sinəsini gərəndir:

**Zamanların üstündən ruhumuza gəl, şığı,**
**Şimşəyinlə kəs, dağıt zülməti, qaranlığı,**
**Qaytar sevən ürəyi, yox olan insanlığı.**

O kəs ki şər əməllərə qarşı səsini qaldırır, sinəsini sipər çəkir - bu, yalnız Əli dəsti-xəttinin məhsuludur. Bunları incəliyinədək bilən şair yenidən Əli böyüklüyünün, insanlığa pasibanlığının növbəti nişanlarını sıralayır:

**İki sevən ürəyin sığınan damı da sən,**
**Yarımçıq aruzuların bütövü, tamı da sən,**
**Bir şəhidin istəyi, arzusu, kamı da sən,**
**Cümləyə hamı də sən, Cəmşidin camı da sən,**
**Camalların cəmisən, sir surətsən, ya Əli!**

Təxmisin sonrakı bəndlərində şairin vətən, yurd həsrətli acıları dilə gəlir, *"tale baxtinin səhrasından qəm karvanının keçməsi, göyərən arzularının zalım dövranın biçməsi"* söylənilir və *"qəlbinin bulağından qan içən qəsidə"*nin yazılma yaşantıları sözə çevrilir, "könüllərə sevgisindən kurqan ucaltdığını" Əli ibn Əbu Talibin adına ünvanlayır:

**Söz götürdüm, söz yığdım, doldurdum dükanımı,**
**Adına güvəncimlə göstərdim imkanımı.**
**Könüllərə sevgimdən ucaltdım kurqanımı,**
**Nankorlar viran qoydu yurdumu, məkanımı,**
**Qarabağsan içimdə, qəm, möhnətsən, ya Əli!**

Son olaraq bildirək ki, "Ya Əli"də aşkar görünən klassik, əzəmətli və yeri gələndə lirik söyləm və pauzalar, bədii təsvirlərin orkestral birliyinin yaratdığı panoram polifonizm eyni mükəmməllikdə təxmisdə də öz əksini tapmışdır. Ə.R.Xələfli bu qəsidə və təxmislə poetik düşüncəsinin fırtına coşqunluğunun növbəti qabarmasına, yüksəlişlə müşayiət olunan gerçəkliyinə nail olmuşdur. *"Sevdalı ürəklərin xalda yanan qarası"* kimi qeyri-adi deyimin sahibi, şeirdə, nəhayət, özünə xitab edir.

**Əli Rzaya mən dedim, sözü bilən kəsə yaz,**
**Urvatda saxla sözü, haqdan gələn səsə yaz,**
**İlhamından gələni yol boyu nəfəsə yaz,**
**Bu yerdə Xələfli də dedi sözü kəsə yaz:**
**Düşüncəsi kasada zehniyyətsən, ya Əli!**

Haqdan gələn bu yeni səsinin sədası sayalı olsun. Biz də kəsə söz nizamına əməl edərək fikrimizə nöqtə qoyuruq.

*19.11.2024*